**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№318/2** **17 mart 2020-ci il**

**Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2019-cu il üzrə auditor xidməti göstərilməsinə dair hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planının 1.4-cü “Sərbəst auditorların və Auditor təşkilatlarının 2019-ci il üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov, N.İsmayılova, H.Paşa) tərəfindən hazırlanmış hesabata dair məruzəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2019-cu il üzrə auditor xidməti göstərilməsinə dair hesabat” nəzərə alınsın (əlavə olunur).

2. Orta müqavilə məbləğinin aşağı düşmə faktının xidmət bazarında mənfi hal olduğu qeyd edilsin və bu sahədə mövcud problemlərin aşkara çıxarılıb həll edilməsi üçün Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

2.1. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən müvafiq komitələrin potensialından istifadə edilməklə bir ay müddətində bu sahədə orta müqavilə məbləğinin ən aşağı səviyyəyə düşməsi amili araşdırılsın, hər bir Palata üzvünün bu vəziyyətin yaranmasında oynadığı rol müəyyən edilsin və orta müqavilə məbləğinin azaldılmasının qarşısının alınmasına dair tədbirlər planının işlənib təqdim edilməsi təmin edilsin.

2.2. 2018-ci il ilə müqayisədə 2019-cu ildə göstərilən auditor xidmətinin həcmində ciddi geriliyə yol vermiş auditor təşkilatlarının və sərbəst auditorların üzə çıxarılması və bunun səbəblərinin araşdırılması üzrə təhlil aparılması təmin edilsin.

2.3. Auditorlar Palatası Şurasının 2018-ci il 5 oktyabr tarixli 304/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti müqaviləsinin bağlanılmasına dair Auditorlar Palatasının məlumatlandırılması Qaydası”nın tələblərinə riayət edilməsi təmin edilsin və bu Qaydaya riayət etməyən üzvlər barədə təqdimat hazırlanıb Palatanın rəhbərliyinə təqdim edilsin.

3. Auditorlar Palatasının İcraçı direktoruna (S.Gülməmmədov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, 2019-cu il üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu təsərrüfat subyektləri, o cümlədən səhmdar cəmiyyətləri (47,8%), məhdud məsuliyyətli cəmiyyətlər (3,88%), bələdiyyələr (89,53%), siyasi partiyalar (27,27%) barədə müvafiq qurumlara (İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi) məlumatın hazırlanıb göndərilməsi təmin edilsin.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov), auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, könüllü audit subyektlərinin həcminin artırılması istiqamətində müvafiq tətbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

5.1. Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə yenidən baxılması barədə” qərarına riayət edilməsini təmin etsinlər;

5.2. auditor xidməti bazarında xidmət haqqı məbləğlərini yol verilməz dərəcədə aşağı salmaqla Auditorlar Palatasının digər üzvlərinə qarşı haqsız rəqabət və dempinq hallarının artmasının və keyfiyyətsiz auditor xidməti göstərilməsinin qarşısının alınması ilə əlaqədar Auditorlar Palatasının üzvləri tərəfindən imzalanmış Partnyorluq Sazişinin müddəalarına riayət edilməsini təmin etsinlər.

6. Auditorlar Palatasının İcraçı direktoruna (S.Gülməmmədov), Aparatın rəhbərinə (Q.Bayramov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, auditə dair maarifləndirmə, informasiya-təbliğat işlərinin gücləndirilməsi və zəruri məlumatların KİV-də işıqlandırılması məqsədilə, habelə şəfaflığın təmin olunması və auditin mövcud problemlərinin aradan qaldırılması istiqamətində mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi işlərini davam etdirsinlər.

7. Auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, öz təşkilatlarında daxili nəzarət sisteminin gücləndirilməsini təmin etsinlər.

8. Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitəyə (N.Talıbov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, auditorların işlərinin nəticələrinin təsərrüfat subyektlərinin uğurlarının davamlılığına təsirinin müəyyənləşdirilməsi üzrə metodikanın hazırlanmasını təmin etsinlər.

9. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**